# Şəxsiyyətlərarası münasibətlər mədəniyyətinin formalaşdırılmasında pedaqoji əməkdaşlığın rolu

**Məlahət İsgəndər qızı Əsgərova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Gəncə Dövlət Universiteti*
**E-mail:** ganca-regional-kollec@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
p.ü.f.d. L.A. Məmmədli

**Açar sözlər:** pedaqoji əməkdaşlıq, əməkdaşlıq, müəllim-tələbə münasibətləri, müəllim-tələbə əməkdaşlığı, pedaqoji əməkdaşlığın təmin olunması

**Ключевые слова:** педагогическое сотрудничество, сотрудничество, отношения преподавателя и ученика, сотрудничество преподавателя и ученика, обеспечение педагогического сотрудничества

**Key words:** pedagogical cooperation, cooperation, teacher-student relationship, cooperation between teacher and student ensuring pedagogical cooperation

İnsanlar, o cümlədən şagirdlər və tələbələr arasında yüksək səviyyəli münasibətlərin, davranış və rəftar tərzinin, ünsiyyətin, qarşılıqlı yardımın bərqərar olmasında şəxsiyyətlərarası münasibətlər mədəniyyəti özünəməxsus rol oynayır. Şəxsiyyətlərarası münasibətlər mədəniyyətinin formalaşdırılmasına bir çox amillər kömək göstərir. Onların arasında pedaqoji əməkdaşlığın imkanları daha genişdir.

Pedaqoji peşə sahibinin, müəllimin kommunikativ qabiliyyətləri pedaqoji əməkdaşlığın səmərəli şəkildə formalaşmasında əsas rola malikdir. Bu, peşə-pedaqoji təhsildə müəllim və tələbələrin humanist şəxsiyyətlərarası münasibətlərinin təşəkkül tapmasına öz köməyini göstərir. Pedaqoji şəxsiyyətlərarası münasibətlərin tarixi qədimdir. J.J. Russo, İ.H. Pestalotsi, A. Bakıxanov, M.F. Axundov, K.D. Uşinski, N.İ. Piroqov, L.N. Tolstoy, M.T. Sidqi, S.T. Şatski, A.S. Makarenko, V.A. Suxomlinski, Y.R. Talıbov, A.N. Abbasov və b. öz tədqiqatlarında məsələni bu və ya digər dərəcədə nəzərdən keçirmişlər.

Əməkdaşlıq sistemində müəllim-tələbə, müəllim-şagird münasibətləri özünəməxsus yer tutur. Məlum olduğu kimi, ənənəvi təlimdə müəllim pedaqoji prosesin – subyekti, tələbə (şagird) isə, obyekti kimi qəbul olunurdu. Yeni pedaqoji təfəkkür şəraitində təhsilalan (tələbə, şagird) də pedaqoji prosesin subyekti kimi nəzərdən keçirilir. Beləliklə, iki subyektin qarşılıqlı fəaliyyət göstərməsi tələbata çevrilir. Müəllim və tələbələrin əməkdaşlığı subyektlərin qarşılıqlı əlaqəsi və birgə fəaliyyətidir. Daha çox təcrübəyə malik müəllimlə nisbətən az təcrübəsi olan tələbə (şagird) partnyor kimi pedaqoji prosesdə iştirak edir. Bu prosesdə müəllim və tələbənin humanist münasibətlərinin bərqərar olması zəruridir. Ünsiyyətin və birgə fəaliyyətin xüsusi yaradıcı tipi və qarşılıqlı anlamanı, qarşılıqlı fəallığı, qarşılıqlı faydalılığı, qarşılıqlı məmnunluğu, qarşılıqlı etibar və etimadı, qarşılıqlı səmimiyyəti, qarşılıqlı inamı, nəzərdə tutur. Tərəflər bərabərhüquqlu həmsöhbətlər, müsahiblər kimi çıxış edirlər.

Əməkdaşlıq zamanı kollektiv qarşılıqlı fəaliyyət meydana gəlir. Pedaqoji prosesin metod və priyomları təlim prosesinin və auditoriyadankənar tədbirlərin (müzakirə, diskussiya, problemli vəziyyətlərin həlli, dəyirmi masa ətraflında görüşlər, disputlar və s.) təşkilinə öz köməyini göstərir.

Əməkdaşlıq pedaqogikası bir sıra zəruri innovasiyaları təhsildə həyata keçirmək üçün ötən əsrin 80-ci illərində pedaqoji aləmə gətirilmiş önəmli bir prosesdir.

Psixoloq Q.A. Tsukerman birgə təlim fəaliyyətinin bir sıra müsbət tərəflərini göstərmişdir. Diqqət yetirək.

Müəllim-şagird (tələbə) əməkdaşlığı təlim prosesinin təşkilində:

1. Tədris materialının yaxşı mənimsənilməsinə kömək edir.
2. Şagirdlərin (tələbələrin – M.Ə.) idrak fəallığı və yaradıcı müstəqilliyi artır
3. Bilik və bacarıqların formalaşdırılmasına az vaxt sərf olunur.
4. Şagirdlər (tələbələr – M.Ə.) məşğələlərdən böyük məmnunluq duyur, məktəbdə özlərini rahat hiss edirlər.
5. Sinfin (auditoriyanın – M.Ə.) birlik və yekdilliyi, möhkəmliyi artır, şagirdlərin qarşılıqlı münasibətlərinin xarakteri dəyişir.
6. Şagirdlər son dərəcə mühüm vərdişlərə (məsuliyyət, özünənəzarət, totalitarlıq) yiyələnirlər.
7. Müəllim uşaqların qarşılıqlı rəğbətini nəzərə alaraq, onları qruplara bölmək imkanı qazanır.
8. Müəllimin tərbiyə işinin əhəmiyyəti artır" (1).

Q.A. Tsukerman öz əsərində, əsasən təlim prosesində müəllim-şagird əməkdaşlığından bəhs edir. Həmin müddəaları, fikirləri müəllim-tələbə əməkdaşlığına da aid etmək mümkündür.

Müəllimin peşə səriştəliliyindən biri təlim zamanı tələbələrlə birgə və müstəqil təlim fəaliyyətini təşkil etmək qabiliyyətindən ibarətdir.

Ali təhsil müəssisəsində səmərəli fəaliyyət göstərməsindən ötrü müəllimin tələbələrlə işin müasir metodlarına yiyələnməsidir ki, həmin metodlardan biri təlim əməkdaşlığı metodikasıdır.

Təlim əməkdaşlığı kortəbii təşəkkül tapmır, o, qarşılıqlı yardım müqaviləsi olmaq etibarı ilə partnyor münasibətlərinə əsaslanır: bu "müqavilə"nin hazırlanmasında bütün auditoriya – müəllim və tələbələr iştirak edirlər. Müəllim dərsdə təlim prosesini, auditoriyanı, tələbələri idarə edir. Tələbələr tədris materialını necə öyrənmişlər, məşğələyə necə hazırlaşmışlar.? Müəllim ilk növbədə bu məsələlərə diqqət yetirir.

Seminar məşğələsində müəllim təcrübəli məsləhətçi və hami rolunu oynayır, tələbələr isə, zəruri biliklərə və təcrübəyə yiyələnmək sahəsində müstəqilliyə, eyni zamanda fəal həyat mövqeyinə yiyələnirlər.

Müasir mərhələdə əməkdaşlıq probleminin aktuallıq kəsb etməsi təbiidir. Aktuallığı bir sıra səbəblər şərtləndirir. Onlarla tanış olaq:

1. Cəmiyyətdə baş verən sosial və pedaqoji proseslər (münasibətlərin humanistləşdirilməsi və demokratikləşdirilməsi, neft kapitalının öz yerini insan kapitalına verməsi, innovasiyalar prosesləri əsasında tələbə gənclərin təhsil və tərbiyəsinin keyfiyyətinin artması, məktəbə, onun problemlərinə ümumxalq diqqəti mövcudluğu;
2. Kütləvi pedaqoji təcrübənin vəziyyəti (müəllim və tələbələrin pedaqoji dəstəyinin yetərli olmaması, onların təlim-tərbiyə prosesindən məmnun qalmaması; tələbələrə münasibətdə münasibəti sahəsində öz mövqelərini dəyişməyin lazım gəldiyini bəzi müəllimlərin başa düşməməsi, yaxud da başa düşmək istəməməsi.
3. Müəllimlərin innovasiya axtarışlarına meyilliliyi (tələbə şəxsiyyətinin inkişafına yönəlmiş təlim və tərbiyənin innovasiya texnologiyalarının tətbiqi.

Əməkdaşlıq pedaqogikası ona əsaslanır ki, "tələbələrin hamısını biliklərlə silahlandırmaq

və bu işi yaxşı yerinə yetirmək", "tələbələrin hamısının tərbiyəlilik səviyyəsini yüksəltmək və tərbiyələndirmə işini keyfiyyətlə görmək", "tələbələrin hamısının inkişafına nail olmaq və bu işi keyfiyyətlə görmək" kimi pedaqoji vəzifələr - hazırda müəllimlərin başlıca vəzifəsinə çevrilmişdir və qarşıda dayanan məqsədə yetmək üçün pedaqoji əməkdaşlığa geniş yer verilir və innovasiya texnologiyalarından faydalanılır.

Auditoriyadankənar tədbirlər zamanı da, tələbələrin asudə vaxtlarında da təhsilalanlarla ünsiyyət diqqət mərkəzində dayanmalıdır. Tələbə kollektivinin inkişafında özünüidarə mühüm əhəmiyyətə malikdir.

Bəzi pedaqoqlar, hətta qabaqcıl müəllimlərin bir qismi təlim müvəffəqiyyətinin rəqəmlə yazılı qiymətləndirilməsinin əleyhinədirlər. Bu qiymətləndirmə əslində heç də həmişə müəllim-şagird, müəllim-tələbə əməkdaşlığı münasibətlərinin bərqərar olmasına kömək göstərmir. Təlim, tərbiyə və inkişaf üçün əlverişli imkanlar açmır, təhsilalanlarda heç də həmişə təlimə maraq yaratmır. Hətta düzgün qiymətləndirməmək şagirddə, tələbədə müəllimə qarşı acıq yaradır, onda pedaqoji peşə sahibinin ədalətsiz, qeyri-obyektiv olması barədə fikir formalaşdırır. Belə pedaqoqların qənaəti budur ki, təhsilalanda fəaliyyətin nəticələrinin qiymətləndirilməsinə müsbət motivasiyanın yaradılması daha vacibdir. Bu da təlim-tərbiyə prosesinin iştirakçıları, daha dəqiqi, subyektləri arasında ixtilafların mənbəyinin aradan qaldırılmasına kömək edir.

Q.S. Perevoşşikovanın qənaətincə, pedaqoji əməkdaşlığın daha çox aşağıdakı istiqamətləri diqqəti cəlb edir:

"1. Təhsilalana (o cümlədən tələbəyə) şəxsiyyətyönlü yanaşma.

2. Didaktik fəallaşdırıcı və inkişafetdirici kompleks.

3. Tərbiyə konsepsiyası.

4. Ətraf mühitin pedaqojiləşdirilməsi" (2).

Bir məsələni də diqqətdə saxlamaq lazımdır. Əməkdaşlıq pedaqogikası heç də yalnız müəllimlərin şagirdlərlə, tələbələrlə, pedaqoji kollektivin üzvləri ilə əməkdaşlığından ibarət deyil, eyni zamanda valideynlərlə əməkdaşlığını nəzərdə tutur. Müəllimlərin təhsilalanların valideynlərilə əməkdaşlıq o deməkdir ki, bu əməkdaşlıq nəticəsində ata-analar tələbələrin təlimi və tərbiyəsi prosesində müttəfiq olmalıdırlar ki, bu da şəxsiyyətin təşəkkül tapıb formalaşmasına müstəsna dərəcədə imkanlar açır.

Belə fikir mövcuddur ki, valideynlərlə ümumtəhsil müəssisələri sıx əlaqə şəraitində çalışmalıdırlar. Belə pedaqoji əməkdaşlıq zamanı məktəb, sinif rəhbərləri şagirdlərin ata-analarını valideyn iclaslarına dəvət etməli, valideynlər üçün "açıq qapı" günləri elan etməlidir. Hətta məktəbdə valideyn komitəsi də fəaliyyət göstərir. Pedaqoji ədəbiyyatda ümumtəhsil məktəbin ailələrlə üç formada əlaqəsindən söz açılır: qrup halında əlaqə, fərdi əlaqə və kollektiv əlaqə forması.

Sual olunur: ali təhsil müəssisələrini tələbələrin valideynləri ilə pedaqoji əməkdaşlığı niyə diqqət mərkəzindən kənarda qalmalıdır? Niyə institut və universitetlərdə, ayrı-ayrı fakültələrdə ildə bir, yaxud iki dəfə tələbələrin valideynləri ilə görüşlər, yığıncaqlar keçirilməsin? Bu yalnız tələbə gənclərin təlimə məsuliyyətini atrırar, onların daha yüksək səviyyədə tərbiyə nümunəsi göstərməsinə səbəb olardı.

Müəllimlərin və valideynlərin qarşılıqlı fəaliyyəti ata-anaların bəzi hallarda mühazirə və seminar məşğələlərində, tələbələrlə auditoriyadankənar tədbirlərin təşkilində iştirakını mümkün hesab edir.

**Məqalənin aktuallığı.** Şəxsiyyətlərarası münasibətlər mədəniyyətinin formalaşdırılması həmişə aktual olmuşdur. Bu sahədə pedaqoji əməkdaşlığın rolundan söz açılması problemin

aktuallığını daha da artırır.

**Məqalənin elmi yeniliyi.** Şəxsiyyətlərarası münasibətlər mədəniyyətinin formalaşdırılmasında pedaqoji əməkdaşlığın rolu diqqət mərkəzinə gətirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə gənc tədqiqatçılar üçün faydalı ola bilər.

## Ədəbiyyat

1. Цукерман, Г.А. Виды общения в обучении. Томск: Пеленг, 1993.

2. Перевощикова, Г.С. Педагогика сотрудничества и личностно-ориентированный подход в преподавании истории как средства организации продуктивного сотрудничества детей на уроках. М., 2020.

3. http://www.ipages.ru/index.php?ref_item_id=27478&ref_dl=1

**М.И. Аскерова**

## Роль педагогического сотрудничества в формировании культуры межличностных отношений

## Резюме

Коммуникативные способности педагогической профессии, учителя играют клюючевую роль в эффективном формировании педагогического сотрудничества. Это способствует формированию гуманистических межличностных отношений между учителями и учениками в системе профессионального образования. История педагогических межличностных отношений древняя.

В статье рассматривается роль педагогического сотрудничества в формировании культуры межличностных отношений.

**M.İ. Asgarova**

## The role of pedagogical cooperation in the formation of a culture of interpersonal relations

## Summary

The communication skills of the teaching profession, teachers play a key role in the effective formation of pedagogical cooperation. This contributes to the formation of humanistic interpersonal relationships between teachers and students in the vocational education system. The history of pedagogical interpersonal relations is ancient.

The article examines the role of pedagogical cooperation in the formation of the culture of interpersonal relations.

**Redaksiyaya daxil olub:** 11.08.2021